EHEAROME2020

# Nazirlərin Roma Bəyanatı

ƏLAVƏ I

EUROPEAN
Higher Education Area

bologna process

ITALIAN BFUG SECRETARIAT
2018-2020

IN·GLOBAL
Enhancing Knowledge of the
EHEA and Global Dialogue

Translated within the Erasmus+ project "IN-GLOBAL Enhancing Knowledge of the EHEA and Global Dialogue" in 2023.

The original version of the Rome Communiqué and its annexes are available on the website of the European Higher Education Area:
https://ehea.info/page-ministerial-conference-rome-2020

Co-funded by
the European Union

Funded by the European Union. Views and opinions expressed are however those of the author(s) only and do not necessarily reflect those of the European Union or the European Education and Culture Executive Agency (EACEA). Neither the European Union nor EACEA can be held responsible for them.

EHEAROME2020

# Akademik Azadlıq haqqında Bəyanat

BTİQ tərəfindən müxtəlif ekspertlər və maraqlı təşkilatlarla məsləhətləşmələr əsasında hazırlanmış bu mətn AATM üçün akademik azadlıq haqqında ümumi anlayışı müəyyən etmək və göstəricilərin gələcək inkişafı üçün ilkin əsası təmin etmək məqsədi daşıyır.

Akademik azadlıq ali təhsildə keyfiyyətli təhsilin, tədrisin və tədqiqatın, eləcə də demokratiyanın zəruri hissəsidir. Ali təhsil müəssisələrinin biliyi cəmiyyətin rifahı naminə ictimai sərvət kimi istehsal edib ötürməsi vacib şərtdir. Bu, müəllimlərə və tələbələrə tədqiqat və açıq mübadilə vasitəsilə bilikləri inkişaf etdirmək üçün düşüncə və araşdırma azadlığını, həmçinin akademik qurumların və proqramların çərçivəsində və bunun xaricində tədqiqat nəticələrini paylaşma azadlığını təmin edir.

Akademik azadlıq qismən təhsil hüququna əsaslanan, xüsusi fundamental demokratik hüquqdur və düşüncə, fikir və ifadə azadlığı ilə ümumi xüsusiyyətlərə malikdir. Akademik azadlıq ciddi elmi və peşəkar standartlara, başqalarının hüquqlarına hörmətə, etik davranışa və tədqiqatın insanlara və onların ətraf mühitinə təsiri barədə dərkə əsaslanmalıdır. Bu, akademik fənlərin və araşdırma sahələrinin standartlarını inkişaf etdirmək üçün vacibdir. Beləliklə, akademik azadlıq yalnız fərdi bilikləri və özünü ifadəni deyil, həm də demokratik cəmiyyətlərdə akademik institutların sərbəst fəaliyyətini qoruyur. İnstitusional muxtariyyət akademik azadlığın əsasıdır.

Akademik azadlıq akademik birliyin, o cümlədən akademik heyət və tələbələrin tədqiqat, tədris və öyrənmə azadlığını və daha geniş şəkildə həm ali təhsil daxilində, həm də ondan kənarda tədqiqat və tədris nəticələrinin yayılması ilə bağlı azadlığını müəyyən edir. Əslində, bu konsepsiya akademik birliyə repressiya qorxusu olmadan cəmiyyətdə tədqiqat, tədris, öyrənmə və ünsiyyətlə məşğul olmaq təminatı verir.

Akademik azadlıq, həmçinin, demokratiyanın vacib elementidir. Akademik azadlığa və institusional muxtariyyətə hörmət etmədən cəmiyyətlər həqiqi demokratik ola bilməzlər. Eyni zamanda, AATM-in əsas dəyərləri demokratik cəmiyyətlərdən kənarda tam şəkildə həyata keçirilə bilməz. Akademik azadlıq ifadə azadlığına bənzəyir və eyni zamanda həm akademik istiqamətlərin standartlarına əsaslanır, həm də tədqiqat nəticələrinə əsaslanaraq bu standartlara münasibətdə tələbləri irəli sürmək üçün şəraiti təmin edir.

Konsepsiya sadə görünsə də, əslində, son dərəcə mürəkkəbdir və ali təhsil mühitinin və ali təhsil iştirakçılarının institutsional muxtariyyəti və ictimai məsuliyyəti kimi digər fundamental dəyərlərlə sıx bağlıdır. Akademik azadlıq bilik və həqiqət axtarışına əsaslanan ümumbəşəri dəyərdir. Onun əsas prinsipləri fərqli milli kontekstlərdə və ya müxtəlif tipli ali təhsil müəssisəsələrində fərqli başa düşülə və şərh edilə bilməz. Bununla belə, akademik azadlıq mütləq bir dəyər deyil və onun tətbiqi təcrübəsi işlədiyimiz qurumlar və yaşadığımız cəmiyyətlər tərəfindən formalaşdırılır. Beləliklə, akademik azadlığın fəaliyyət genişliyi və müdafiə etdiyi araşdırma və ifadə azadlığının sərhədləri tez-tez müzakirə mövzusuna çevrilir.

Akademik azadlıq həm ali təhsil daxilində, həm də ondan kənarda düşünmə, sorğulama və fikirləri paylaşma azadlıqlarını özündə ehtiva edən öyrənmək, tədris etmək və tədqiqat aparmaq azadlığı kimi başa düşülə bilər. Gerçək akademik mühitdə bu azadlıqlara məna verilməsi və reallaşdırılması avtomatik olaraq bir sıra problemlərin yaranmasına şərait yaradacaq. Tədris etmə azadlığı yalnız dövlət və sosial məsuliyyət və institutsional muxtariyyətlə birlikdə həyata keçirilə bilər. Dövlət orqanları uyğun ali təhsil proqramlarının vətəndaşlara təqdim edilməsini təmin etməsinə görə, muxtar ali təhsil müəssisələri isə proqramların

əsasını təşkil edən tədqiqatlara və onların tədrisinin keyfiyyətinə görə məsuliyyət daşıyırlar. Akademik heyət kurrikulumun və proqram komponentlərinin hazırlanmasında və tətbiq olunan tədris metodlarının işlənib hazırlanmasında da böyük məsuliyyət daşıyırlar.

Ali təhsilin idarə edilməsi, həmçinin, öyrənmək, tədris etmək və tədqiqat aparmaq azadlıqları üzərində təsirə malikdir və akademik azadlığa hörmət edəcək rasional şəkildə təşkil edilməlidir. Avropada akademik heyət və tələbələrin idarəetmə və qərar qəbuletmə orqanlarında fərqli şəkildə təmsil olunduğu müxtəlif idarəetmə modelləri mövcuddur. İdarəetmə orqanlarında iştirak etmək təhsil müəssisəsinin tədris və tədqiqat missiyalarına dəstək verə bilər və daha geniş qarşılıqlı sosial fəaliyyət məqsədini əks etdirə bilər. Konkret modeldən asılı olmayaraq, akademik heyət və tələbələr qərar qəbuletmə proseslərində fəal iştirak etməli və mənfi nəticələrdən qorxmadan öz qurumunun siyasəti və prioritetləri haqqında fikirlərini bildirmək hüququna malik olmalıdırlar.

Dəyərlər qarşılıqı bağlılığa malikdir və öyrətmək azadlığı kimin öyrədilməli olduğu sualını ortaya çıxarır və başqa sözlə, öyrənmək azadlığı ilə sıx bağlıdır. Öz növbəsində, bu dəyərlər ali təhsilə bərabər çıxışla bağlıdır və ali təhsilə çıxış meyarları və şərtləri ilə bağlı bir sıra məsələlərin ictimai dialoq və inzibati prosedurlar vasitəsilə həll edilməsi vacibdir.

Eyni zamanda, tədris və tədqiqatla kimin məşğul olduğu, eləcə də akademik heyətin işə götürülməsi və işdə saxlanılması üçün qərar qəbuletmə prosesinin tipi ilə bağlı suallar da verilməlidir. Akademik azadlıqdan istifadə etmək üçün professor-müəllim heyətini kifayət qədər təhlükəsiz əmək şəraiti ilə təmin etmək çox vacibdir. Akademik heyət onların tədqiqatlarının, tədrislərinin məzmunu və ya bəyan edilmiş peşəkar baxışları ilə əlaqədar təhdid edilməməli, işdən qovulmamalı və ya başqa üsullarla cəzalandırılmamalıdır.

Tədqiqat azadlığına, müvafiq ixtisasın peşə standartlarını nəzərə alaraq, aşağıdakıları müəyyən etmək hüququ daxildir: nə tədqiq ediləcəkdir (və ya edilməməlidir); necə araşdırılacaqdır; tədqiqat kim tərəfindən, kiminlə və hansı məqsədlə aparılacaqdır; tədqiqat nəticələri hansı üsulları və yollarla ictimailəşdiriləcəkdir.
Bu məsələlər boşluqda həll oluna bilməz. Hər hansı bir təhsil müəssisəsində hansı tədqiqat proqramlarının və ya fənlərin təklif olunduğunun müəyyən edilməsi dövlət hakimiyyətindən və institutlardan çətin strateji seçimlər tələb edən mürəkkəb məsələdir. Tədqiqat həm dövlət, həm də özəl mənbələr vasitəsi ilə maliyyələşmə tələb edir və bir çox hallarda etik məsələlərin diqqətlə nəzərdən keçirilməsini tələb edir.

Akademik azadlıq keyfiyyətli ali təhsilin mühüm komponenti olsa da, avtomatik qəbul edilə bilən bir dəyər deyil. Əksinə, akademik azadlığın tətbiq oluna bilinməsini təmin edən müxtəlif elementlərin və şərtlərin qarşılıqlı təsiri mexanizmi qurulmalı, müntəzəm olaraq qiymətləndirilməli, qorunmalı və dəstəklənməlidir.

Co-funded by
the European Union

This translation is co-funded by the European Union. Views and opinions expressed are however those of the author(s) only and do not necessarily reflect those of the European Union or the European Education and Culture Executive Agency (EACEA). Neither the European Union nor EACEA can be held responsible for them.

EUROPEAN
Higher Education Area

bologna
process

ITALIAN BFUG SECRETARIAT
2018-2020